Analitik Qeyd

*İyun 2020 / Buraxılış # 27*

# BAKININ TERRORİZMLƏ MÜBARİZƏ POTENSİALININ GÜCLƏNDİRİLMƏSİNDƏ TÜRKİYƏNİN ROLU: YUMŞAQ YANAŞMA NƏ DƏRƏCƏDƏ İŞLƏKDİR?

Nicat Eldarov[1]

## Qısa İcmal

Türkiyə, Azərbaycan və Gürcüstan terrorizm və zorakı ekstremizmə qarşı mübarizə sahəsində birgə fəaliyyəti davam etdirirlər. Üç dövlət regionda terror hücumlarının qarşısını almaq məqsədilə birgə hərbi təlimlərin keçirilməsi, hüquq-mühafizə sahəsində əməkdaşlığın gücləndirilməsi, kiber-dayanıqlılığı təkmilləşdirmək üzrə əməkdaşlıq, eləcə də ordularının birgə fəaliyyət qabiliyyətinin inkişaf etdirilməsi ilə bağlı razılıq əldə ediblər. Bu analitik qeyddə Türkiyənin Azərbaycanın terrorizmə qarşı mübarizə potensialını inkişaf etdirməkdə rolu təhlil olunur və bu fikir irəli sürülür ki, böyük ölçüdə təhlükəsizlik tədbirlərinə əsaslanan terrorizmə qarşı mübarizə strategiyasından "daha yumşaq" yanaşmaya tədricən keçid uzunmüddətli perspektivdə terrorizmin əsas səbəblərini aradan qaldırmaq üçün zəruridir. Belə bir keçid üçün tövsiyələr aşağıdakılardır: beynəlxalq insan hüquqları standartlarına uyğun olan və empirik dəlillərə əsaslanan terrorizmə qarşı mübarizə strategiyasının hazırlanması; həbsxana de-radikallaşma və reabilitasiya proqramlarının təşkili; sosial-iqtisadi və ideoloji dayanıqlılığı artırmaq üçün "əhali mərkəzli" tədbirlərin təşviqi; və icma iştirakçılığı üzrə proqramların yaradılması. Cəmiyyətin dayanıqlılığına nəticə kimi deyil, proses kimi yanaşmaq lazımdır və o, sistemlərin təbii fəlakətlər və digər xarici və daxili sarsıntılardan müdafiəsində də vacib rol oynayır.

**Açar sözlər:** Türkiyə-Azərbaycan-Gürcüstan üçtərəfli əməkdaşlığı; hərbi təlimlər; terrorizmə qarşı mübarizə; radikallaşma; yumşaq yanaşma.

[1] Müstəqil araşdırmaçı və yazar; İsveç, Lund Universiteti, Avropa Məsələləri üzrə Magistr proqramının məzunu

# Giriş

Türkiyə, Azərbaycan və Gürcüstan enerji və kommunikasiya sektorundan terrorizmə qarşı mübarizə sektoruna qədər əməkdaşlıq sahələrinin öz əksini tapdığı Trabzon bəyannaməsinin (2012) qəbulundan sonra öz strateji münasibətlərini dərinləşdirməyə davam etmişlər[2]. Üçtərəfli təhlükəsizlik əməkdaşlığının ilkin fokusunun mineral yanacaqların təhlükəsiz daşınması olmasına baxmayaraq, 2014-cü ildə qəbul olunmuş Naxçıvan sazişi sonralar tərəflər arasında birgə hərbi təlimlərin keçirilmə perspektivinə də imkan yaratmışdır[3]. NATO ilə bir çox tərəfdaşlıq sahələri çərçivəsində yaxın əməkdaşlığın davam etdirilməsi üçtərəfli tərəfdaşlığın inkişafında, xüsusilə, əhəmiyyətli rol oynamışdır[4].

Tərəfdaşlığı şərtləndirən kollektiv maraqlar regionda enerji, infrastruktur və nəqliyyat layihələrinin hazırlanması və qorunması; mineral yanacaqların təhlükəsiz şəkildə daşınması; silahlı qüvvələrin peşəkarlığının yüksədilməsi; və "donmuş münaqişələr" mövzusunda dəstəyin təmin edilməsidir. Kürdüstan İşçi Partiyasının təsirinin azaldılması; Dağlıq Qarabağla bağlı təhlükəsizlik məsələləri; və Cənubi Osetiya və Abxaziyanın işğalının dayandırılması isə müvafiq olaraq Türkiyə, Azərbaycan və Gürcüstanın tərəfdaşlıqda fərdi maraqları kimi müəyyənləşdirilə bilər[5].

Türkiyə Azərbaycanın terrorizmə qarşı mübarizə potensialının gücləndirilməsində önəmli rola sahib olmuşdur. NATO ilə tərəfdaşlıq limitləri çərçivəsində (həm öz təşəbbüsü vasitəsilə, həm də birgə NATO qərarı əsasında) Türkiyə, əsasən, silahlı qüvvələrin birlikdə çalışma fəaliyyətinin inkişaf etdirilməsi və kəşfiyyat məlumatlarının bölüşdürülməsində kömək etmiş; sülhməramlı qüvvələrin potensialını artırmış; eləcə də Sülh və Təhlükəsizlik naminə Elm (STE) proqramı vasitəsilə ixtisasartırma prosesində böyük ölçüdə iştirak etmişdir[6].

---

[2] Türkiyə XİN. 2012. "*Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası Xarici İşlər Nazirlərinin Trabzon Bəyannaməsi, 8 iyun 2012-ci il, Trabzon*", Burdan tanış olmaq olar: http://www.mfa.gov.tr/default.en.mfa; Daxil olunub: 5 yanvar 2020-ci il

[3] Çelikpala M. və Vəliyev C. 2015. "Azərbaycan-Gürcüstan-Türkiyə: Uğurlu regional əməkdaşlığın nümunəsi", *Beynəlxalq və Avropa Araşdırmaları Mərkəzi*, say 04, səh. 18

[4] Türkiyə XİN. 2012. "*Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası Xarici İşlər Nazirlərinin Trabzon Bəyannaməsi, 8 iyun 2012-ci il, Trabzon*", Burdan tanış olmaq olar: http://www.mfa.gov.tr/default.en.mfa; Daxil olunub: 5 yanvar 2020-ci il

[5] Qəribov A. 2018, Azərbaycan, Gürcüstan, Türkiyə: Üçtərəfli əməkdaşlığın hərbi aspektlərinin inkişafı , *EUCACIS onlayn qəzeti*, say. 3, səh. 4-9

[6] Yüce A. 2016, NATO və Sülh naminə Tərəfdaşlıq (SNT) Proqramı kontekstində Azərbaycan-Türkiyə Hərbi Əməkdaşlığı, *"Qafqaz və dünya" beynəlxalq elmi jurnalı*, say 21, səh. 56-64; Azərbaycan Müdafiə Nazirliyi t.y., *NATO ilə əməkdaşlıq*, Link: https://mod.gov.az/en/cooperation-with-nato-028/; Daxil olunub: 10 mart 2020-ci il; NATO 2018, *Azərbaycanla münasibətlər*, Link: https://www.nato.int/cps/en/natohq/topics_49111.htm; Daxil olunub: 8 mart 2020-ci il; NATO 2020, *Ölkə üzrə liflet 2020: Azərbaycan*, Link: https://www.nato.int/science/country-fliers/Azerbaijan.pdf; Daxil olunub: 8 mart 2020-ci il

**Silahlı qüvvələrin birlikdə çalışma fəaliyyəti və kəşfiyyat məlumatlarının bölüşdürülməsi**

- Azərbaycan hərbi heyətindən 762 kadrın Türkiyənin təşkil etdiyi SNT kurslarında iştirakı (1999-2015)
- Dənizdə təhlükəsizlik və sülhməramlı qüvvələr üçün 6 özünüqiymətləndirmə təlimi (2017-2018)
- Kəşfiyyat məlumatların bölüşdürülməsi/təhlili, sərhəd/infrastruktur təhlükəsizliyinin artırılması üzrə NATO-nun Tərəfdaşlıq Fəaliyyət Planı çərçivəsində əməkdaşlıq

**Sülhməramlı qüvvələr**

- Əfqanıstanın zorakı ekstremistlərə qarşı mübarizəsinə kömək etmək məqsədilə Türkiyənin hərbi kontingenti daxilində 95 hərbçinin Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (2002-2014) və daha sonra Qətiyyətli Dəstək Missiyasında iştirakı

**STE**

- 1995-ci ildən bəri təxminən 30 kooperativ layihə üçün vəsait alınıb və 87 təşəbbüsə rəhbərlik edilib
- Kritik infrastrukturun (kiber) təhlükəsizliyi, eləcə də böhranın idarəolunması üzrə milli potensialın artırılması sahəsində Türkiyəli ekspertlərin keçirdikləri təlimlər

Həmçinin, Türkiyə “beynəlxalq terrorizm və təcavüzkar separatizmin mənfi təsiri”nə qarşı mübarizəyə kömək etmək məqsədilə əlavə kanallar vasitəsilə Azərbaycan ordusunun və hüquq-mühafizə orqanlarının modernizasiyasını dəstəkləmişdir[7].

---

[7] Azərbaycan MN 2017, *Azərbaycan, Gürcüstan və Türkiyə silahlı qüvvələrinin rəhbərləri görüş keçirdilər*, Link: https://mod.gov.az/en/news/heads-of-the-armed-forces-of-azerbaijan-georgia-and-turkey-held-a-meeting-20354.html; Azərbaycan MN 2018, *Azərbaycan ordusunun nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər*, Link: https://mod.gov.az/en/news/representatives-of-the-azerbaijan-army-take-part-in-international-events-24974.html, Daxil olunub: 14 mart 2020-ci il; Azərbaycan MN 2019a, *“Qafqaz Qartalı - 2019” təlimləri vaxtı xüsusi təyinatlılar düşmən müdafiəsinin dərinliklərinə daxil oldular*, Link: https://mod.gov.az/en/news/during-the-caucasian-eagle-2019-exercises-the-special-forces-penetrated-into-the-depths-of-the-enemy-s-defense-28683.html, Daxil olunub: 14 mart 2020-ci il; Azərbaycan MN 2019b, *" Qafqaz Qartalı - 2019” təlimlərinin növbəti mərhələsi keçirildi*, Link: https://mod.gov.az/en/news/the-next-stage-of-the-caucasian-eagle-2019-exercises-was-held-28652.html, Daxil olunub: 14 mart 2020-ci il; Azərbaycan MN 2019c, *Hərbi qüvvələrin müharibə oyunları üzrə mərkəzində “Eternity-2019” təlimləri davam edir* , Link: https://mod.gov.az/en/news/eternity-2019-exercises-are-continued-at-the-center-for-war-games-of-the-armed-forces-28394.html, Daxil olunub: 15 mart 2020-ci il; E-qanun, tarix yoxdur (a), *Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında "Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər ağır cinayətlərə qarşı mübarizə haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*, Link: http://e-qanun.gov.az/alpidata/framework/data/1/f_1037.htm, Daxil olunub: 17 mart 2020-ci il; APAN icması, tarix yoxdur, *Türkiyə Azərbaycan və Qırğızsstanla Polis/Hərbi əməkdaşlığı nəzərdə tutur*, Link: https://community.apan.org/wg/tradoc-g2/fmso/w/o-e-watch-mobile-edition-v1/22671/turkey-eyes-police-military-cooperation-with-azerbaijan-and-kyrgyzstan/, Daxil olunub: 17 mart 2020-ci il; Azərbaycan DİN-in Daxili Qoşunları, tarix yoxdur, *Beynəlxalq münasibətlər çərçivəsində daxili qoşunlar*, Link: https://dq.mia.gov.az/?/en/menu/16/, Daxil olunub: 19 mart 2020-ci il

| **Hərbi təlimlər və əməkdaşlıq** | **Hüquq-mühafizə sahəsində əməkdaşlıq** |
|---|---|
| • **Qafqaz Qartalı** (üçtərəfli); **Anadolu Zümrüdü; Anadolu Qartalı** (ikitərəfli): havadan müdafiə və terrorizmə qarşı potensialın gücləndirilməsi<br>• **Əbədiyyət** (üçtərəfli): vəziyyətin təhlili vasitəsilə boru xətləri/dəmir yollarının müdafiəsi; böhran vəziyyətində boru xətlərinin fəaliyyəti<br>• **Müdafiə sənayesində əməkdaşlıq** | • **Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər ağır cinayətlərə qarşı mübarizə üzrə saziş (2002):** məlumat və sənədlərin mübadiləsi, nəqliyyat təhlükəsizliyi, deportasiya tədbirləri<br>• **Avrasiyada Hərbi Statuslu Hüquq-Mühafizə Qurumları Təşkilatı:** döyüş hazırlığı və sərhəd təhlükəsizliyinin gücləndirilməsi<br>• **Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 400-dən çox hərbi qulluqçusunun** Türkiyə hüquq-mühafizə orqanlarının təşkil etdikləri təlim-təhsil proqramlarında iştirakı |

Ermənistanın "fəal çəkindirmə" strategiyası və daxili siyasi qarşıdurmaları səbəbiylə Türkiyə-Azərbaycan arasında birgə təlimlərin sayı 2018-ci ildə 7-dən 2019-cu ildə 13-ə yüksəlmiş və Azərbaycanın müdafiə xərcləri artırılmışdır[8].

Terrorizmə qarşı mübarizədə insan hüquqlarının təşviqi və müdafiəsi üzrə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının sonuncu hesabatına görə, 11 sentyabr hadisələrindən sonra həddən artıq təhlükəsizlik tədbirlərinə əsaslanan terrorizmə qarşı qlobal mübarizə strategiyası nəinki uğursuzluğa düçar olmuş, həm də əslində əks effektlər törətmişdir. Bu cür çəkindirici tədbirlər bir çox hallarda empirik dəlillərə əsaslanmamışdır və müəyyən icmaların (məsələn: dini qruplar və etnik azlıqlar) hədəf götürülməsi nəticəsində radikallaşma meyillərini gücləndirmişdir[9]. Həmçinin, gücdən istifadə vasitəsilə terrorist qrupların əməliyyat bacarıqlarını hədəf alan "ağır" terrorla mübarizə tədbirləri zorakı ekstremizmin kökündə duran səbəbləri (məs. siyasi marjinallaşma) aradan götürə bilməmişdir[10]. Əvəzində isə fərdlərin sosial inteqrasiyasını dəstəkləməklə, fərdin radikallaşmasının mənşəyini nəzərdən keçirməklə və fərdə zərərli sosial kontaktlardan kənarlaşmaqda kömək etməklə radikallaşma prosesini aradan qaldırmağa çalışan "yumşaq" yanaşmanın daha təsirli olduğu qeyd edilmişdir[11].

Bu analitik qeyddə bu günə kimi terrorizmə qarşı mübarizədə "ağır" tədbirlər üzrə potensialın artırılmasının uğurlu istiqamət olub-olmadığı araşdırılır. Sənəddə iddia edilir ki, terrorizmə qarşı

---

[8] Qurbanov, I. 2019. *Azərbaycanın hərbi təlimləri Ermənistana təhdideci mesaj göndərir*, Link: https://jamestown.org/program/azerbaijans-military-exercises-send-defiant-message-to-armenia/; Daxil olunub: 27 mart 2020-ci il

[9] OHCHR 2020. *Xüsusi məruzəçinin terrorizmə qarşı mübarizə ilə yanaşı insan hüquqlarının təşviqinə dair hesabatı*, Link: https://www.ohchr.org/EN/Issues/Terrorism/Pages/Annual.aspx; Daxil olunub: 7 fevral 2020-ci il

[10] Onapajo, H. və Ozden. K. 2020. Nigeriyada terrorizmə qarşı qeyri-hərbi yanaşma: Boko Harama qarşı mübarizədə deradikallaşma strategiyaları və çağırışları. *Təhlükəsizlik jurnalı*, səh. 4.

[11] Hoeft G. 2015, Terrorizmə qarşı mübarizədə "yumşaq" yanaşmalar: Deradikallaşma proqramlarının üstünlüklərinin aşkar olunması, *terrorla mübarizə üzrə Beynəlxalq İnstitut*, səh. 4

“ağır” tədbirlər davranışsal radikallaşmanı aradan qaldırmaqda konkret nəticələr hasil etsə də, onlar zorakı ekstremizmi təşviq edən həvəsləndirici faktorları məhv edə bilməmişdir. Bu səbəbdən biz gələcəkdə dövlətlərarası əməkdaşlıqda diqqətimizi “yumşaq” tədbirlərə yönəltməliyik.

# TERRORİZMƏ QARŞI UĞURLU TƏDBİRLƏR, YAXUD DAXİLİ RADİKALİZMİN MİQRASİYASI?

Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasına əsasən, ölkənin terrorizm və nüvə silahının yayılma problemləri olan regionlara yaxınlığı potensial təhlükəsizlik təhdidlərinin yaranmasına səbəb olur. Buna görə də, xüsusilə 11 sentyabr hadisələrindən sonra terrorizmə qarşı mübarizə və kritik infrastrukturun qorunması Azərbaycan dövlətinin mühüm təhlükəsizlik məqsədlərinə çevrilmişdir[12]. Azərbaycanın terrorizmə qarşı əsas tədbirlərinə şübhəli qrup və fərdlərin saxlanılması; terrorçuların səfər etməsi və maliyyələşdirilməsinin qarşısının alınması; və yoxlama siyahıları/biometrik və bioqrafik informasiya/kontr-narrativlərdən istifadə daxildir[13].

Türkiyənin Azərbaycanın terrorizmə qarşı mübarizə potensialını inkişaf etdirməklə bağlı mühüm töhfələrinə baxmayaraq, bu əməkdaşlıq terrorizm və zorakı ekstremizmə gətirib çıxaran daxili radikallaşmanı azaltmağa müvəffəq olmamışdır. Ekstremizlə bağlı hüquq-mühafizə orqanlarının atdıqları mühüm addımların sayı 2014-cü ildə 44-dən 2018-ci ildə 71-ə artmış, 2016-cı ildə isə 77-yə qədər yüksəlmişdir[14].

---

[12] ETH Zürich tarix yoxdur, *Azərbaycan Respublikasının Milli TəhlükəsizlikKonsepsiyası*, Link: https://www.files.ethz.ch/isn/154917/Azerbaijan2007.pdf; Daxil olunub: 01 April 2020

[13] ABŞ Dövlət Departamenti 2008, *Terrorizm üzrə Ölkə Hesabatları: Azərbaycan*, Link: https://2009-2017.state.gov/j/ct/rls/crt/2007/103707.htm, Daxil olunub: 28 mart 2020-ci il; ABŞ Dövlət Departamenti 2013, *Terrorizm üzrə Ölkə Hesabatları: Azərbaycan*, Link: https://2009-2017.state.gov/j/ct/rls/crt/2012/209981.htm, Daxil olunub: 28 mart 2020-ci il; ABŞ Dövlət Departamenti 2014, *Terrorizm üzrə Ölkə Hesabatları: Azərbaycan*, Link: https://2009-2017.state.gov/j/ct/rls/crt/2013/224822.htm, Daxil olunub: 28 mart 2020-ci il; ABŞ Dövlət Departamenti 2018, *Terrorizm üzrə Ölkə Hesabatları: Azərbaycan*, Link: https://www.state.gov/reports/country-reports-on-terrorism-2017/, Daxil olunub: 28 mart 2020-ci il

[14] ABŞ Dövlət Departamenti 2015, *Terrorizm üzrə Ölkə Hesabatları: Azərbaycan*, Link: https://2009-2017.state.gov/j/ct/rls/crt/2014/239406.htm, Daxil olunub: 28 mart 2020-ci il; ABŞ Dövlət Departamenti 2016, *Terrorizm üzrə Ölkə Hesabatları: Azərbaycan: Azerbaijan*, Link: https://2009-2017.state.gov/j/ct/rls/crt/2015/257516.htm, Daxil olunub: 28 mart 2020-ci il; ABŞ Dövlət Departamenti 2017, *Terrorizm üzrə Ölkə Hesabatları: Azərbaycan*, Link: https://www.state.gov/reports/country-reports-on-terrorism-2016/, Daxil olunub: 28 mart 2020-ci il; ABŞ Dövlət Departamenti 2018, *Terrorizm üzrə Ölkə Hesabatları: Azərbaycan*, Link: https://www.state.gov/reports/country-reports-on-terrorism-2017/, Daxil olunub: 28 mart 2020-ci il; ABŞ Dövlət Departamenti 2019, *Terrorizm üzrə Ölkə Hesabatları: Azərbaycan*, Link: https://www.state.gov/reports/country-reports-on-terrorism-2018/, Daxil olunub: 28 mart 2020-ci il




Beləliklə, "ağır" təhlükəsizlik tədbirləri daxili ekstremistlərin əməliyyat qabiliyyətini məhdudlaşdırsa da, koqnitiv radikallaşmanın - fərdin mövcud sosial nizamın legitimliyini rədd etməsi və onu fərqli inanc sistemi vasitəsilə ayrı strukturla əvəz etməsini nəzərdə tutan prosesin - ləğvi üzrə konkret nəticələr hasil etməmişdir[15]. Xaricdəki Azərbaycanlı Sələfi döyüşçülərin sayında olan artım bu vəziyyətin əsas göstəricisidir.

Azərbaycanda Sələfilik 1980-ci illərin sonunda ölkədə İslam xeyriyyə təşkilatları və assosiasiyalarının meydana çıxması ilə formalaşmışdır. 1990-cı illərdə Çeçenistanda olan müharibələr radikallaşmaya səbəb olan əsas hərəkətverici qüvvə olmuşdur. Çeçen müharibələrində Rusiyaya qarşı aktiv şəkildə vuruşan "Meşə Qardaşları" terrorist təşkilatının bəzi liderləri Bakıdakı Sələfi Əbu Bəkr məscidinə olan qumbara hücumunun törədilməsində günahlandırıldıqdan az sonra 2009-cu ildə Əfqanıstandakı militant Sünni qruplara qoşuldular. Bu, təqribən 200-250 Azərbaycan vətəndaşının Əfqanıstan və Pakistanda döyüşlərə qatılması ilə nəticələnmişdir. 2001-2014-cü illər ərzində azı 23 döyüşçü həlak olmuşdur[16].

Əlavə olaraq, Dövlət Təhlükəsizliyi Xidməti 2017-ci ilin martında təxminən 900 azərbaycanlının Suriya və İraqda terror fəaliyyəti ilə məşğul olması barədə məlumat vermişdir. Onlardan 92-si cinayət məsuliyyətinə cəlb edilmiş, 260 nəfər vətəndaşlıqdan çıxarılmış və təxminən 300-ü döyüşlərdə öldürülmüşdür. Bundan əlavə, 70 azərbaycanlı Şimali Qafqazda müharibəyə qoşulmaq üçün sərhədi keçməyə cəhd edərkən saxlanılmışdır. Azərbaycanın hüquq-mühafizə və təhlükəsizlik orqanları 2013-cü ildən etibarən Azərbaycana qayıtmış ekstremistləri izləməyə davam etmişdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq, ekstremistlər

[15] Hoeft G. 2015, Terrorizmə qarşı mübarizədə "yumşaq" yanaşmalar: Deradikallaşma proqramlarının üstünlüklərinin aşkar olunması, *terrorla mübarizə üzrə Beynəlxalq İnstitut*, səh. 8

[16] Lonardo D. (2016): İslam dövləti və onun Azərbaycanda Cihadizmin tarixi şəbəkələri ilə əlaqələri, *Qafqaz tədqiqatı*, səh. 239-260

14 ildən ömürlük həbsə qədər uzunmüddətli həbslə cəzalandırıla bilərlər[17]. Həmçinin, xaricdə terror fəaliyyəti ilə məşğul olan Azərbaycan vətəndaşları həm də vətəndaşlıqdan çıxarılmışdır[18]. Bu tədbirlər arzuolunmaz təsirlər yaradaraq, mövcud radikallaşma meyillərini daha da gücləndirə bilər[19].

Azərbaycanda cihadlaşma hökumətin 2001-ci ildən bəri həyata keçirdiyi repressiv tədbirlərlə əlaqələndirilmişdir. Bu tədbirlər hakim rejim və müxalifət nümayəndələrinə ideoloji alternativ kimi Sələfiliyin artan populyarlığının nəticəsi kimi qiymətləndirilir. Demokratik məkanın daralmasına paralel oalraq, Azərbaycanda rejim Sələfilərin zorakı müqavimət vasitələrinə əl atan "xəvariclər" adlı kiçik fraksiyası əvəzinə, Sələfiləri hədəf götürmüşdür.  Məktəb proqramlarında dini tədrisinin azaldılması, Sələfi məscidlərinin bağlanması və dini xadimlərə qarşı hüquq-mühafizə orqanları tərəfindən sərt rəftar zorakı ekstremizmin artması üçün münbit şərait yaratmışdır[20].

Xüsusilə də Əbu Bəkr məscidinə 2008-ci ildə edilmiş qumbara hücumundan sonra Sələfi məscidləri bağlanmış və onların bir çox ziyarətçiləri saxlanılmışdır. Dini həyat tərzinə müdaxilə etməyi nəzərdə tutan sərt təhlükəsizlik tədbirləri meynstrim, zorakılığı rədd edən Sələfiliklə məşğul olmağı daha da çətinləşdirmiş və bir sıra Sələfi qrupları Əfqanıstan və Fars Körfəzi ölkələrində terror təşkilatlarına qoşulmaq üçün Azərbaycanı tərk etmişdir. Bu faktorlardan əlavə, 2010-cu ildə təhsil müəssisələrində hicabı qadağan edən qərarın qəbul edilməsi radikal müsəlmanlar və Azərbaycanın hüquq-mühafizə orqanları arasında onsuz da gərgin olan münasibətləri daha da kəskinləşdirmişdir[21].  Azərbaycan həm də qeyri-zorakı siyasi fəaliyyətli dini aktivistləri hədəf almaqla siyasi İslamın istənilən forması ilə məşğul olmanı daha da çətinləşdirmişdir[22].

Beynəlxalq insan hüquqları təşkilatları Azərbaycanda dini azadlıqla bağlı vəziyyəti tənqid etmiş, dövlətin dini fəaliyyət üzərində geniş nəzarətini, eləcə də dini aktivistlərə yönəlmiş artan sanksiya və qısnama hallarını qeyd etmişlər[23]. Suriyada münaqişə 2013-14-cü illərdə kəskinləşdikdə, beləcə, radikallaşmış azərbaycanlılar da digər əcnəbi döyüşçülərə qoşulmuş və sosial media vasitəsilə İŞİD kimi qruplar üçün dəstəklərini bölüşmüşlər[24]. Radikallaşmış azərbaycanlı döyüşçülərin İŞİD-ə cəlb olunmalarının əsas üç səbəbi kimi isə onların ölkədə sərbəst şəkildə dini etiqad edə bilməmələri, cəlb olunanlar arasında dini təhsilin olmaması, eləcə də ümumi

---

[17] E-qanun, tarix yoxdur (b), *Azərbaycan Respublikasının Cinayət Məcəlləsi*, Link: http://www.e-qanun.az/code/11; Daxil olunub: 13 aprel 2020-ci il

[18] Lonardo D. (2016): İslam dövləti və onun Azərbaycanda Cihadizmin tarixi şəbəkələri ilə əlaqələri, *Qafqaz tədqiqatı*, səh. 253

[19] Kamilsoy N. 2018, *Azərbaycana qayıdan əcnəbi döyüşçülərlə necə işləməli: deradikallaşma üçün yenidən inteqrasiya?,* səh. 3-5

[20] Süleymanov E. və Ehrmann M. (2013): "Azərbaycanda hərbi Sələfizmin yüksəlişi və onun regional təsirləri", *Yaxın Şərq Siyasəti*, Cild. XX, Say. 3

[21] Rumyantsev S. 2015, *İslam dövlətini gözləyən Azərbaycan: Növbəti nə olacaq?*, Link: https://www.boell.de/en/2015/06/29/azerbaijan-waiting-islamic-state-biggest-mosque-new-hajj-more-arrests-islamists-whats; Daxil olunub: 27 fevral 2020-ci il

[22] İsmayılov M. 2019, Heç vaxt olmamış İslam radikalizmi: Elitanın legitimləşmə axtarışının davamı kimi İslam diskursu. Azərbaycan diqqət mərkəzində, *Avrasiya Araşdırmaları Jurnalı*, Cild. 10(2) 183–196

[23] Qeybulla A., 2017, Azərbaycanda radikal islam, yaxud hökumətin paranoyası?,*Qafqaz Analitik İcmaslı* Say. 93, səh. 10

[24] Rumyantsev S. 2015, *İslam dövlətini gözləyən Azərbaycan: Növbəti nə olacaq?*, Link: https://www.boell.de/en/2015/06/29/azerbaijan-waiting-islamic-state-biggest-mosque-new-hajj-more-arrests-islamists-whats; Daxil olunub: 27 fevral 2020-ci il

sosial-iqtisadi vədlər göstərilmişdir[25]. Beləliklə, Suriya və İraqda təxminən 900 azərbaycanlı döyüşçünün olması ondan xəbər verir ki, Azərbaycan hüquq-mühafizə orqanlarının terrorizm əleyhinə fəaliyyəti militant Sələfiliyin kökünü kəsməyib, əvəzində onun digər münaqişələrə miqrasiyasına gətirib çıxarıb[26].

# HƏRBİ TƏLİMLƏR GEOSİYASİ RİSKLƏRƏ QARŞI

Hərbi təlimlər və kiber-təhlükəsizlik təlimləri, Azərbaycanın çəkindirmə imkanlarını gücləndirməyinə və vacib boru kəmərlərinə potensial hücuma start vermək üçün əməliyyat xərclərini artırmasına baxmayaraq, yalnız qısa müddətdə uğurlu nəticələr hasil etmişdir. Məsələn, Türkiyə və Azərbaycan PKK-nın 2012-ci ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərində təxribatından sonra terror hücumlarına hazırlığı gücləndirsələr də, müxalif qruplar 2015-ci ildə fərqli infrastrukturu - TANAP boru kəmərini hədəf almışdılar[27]. Eyni zamanda, Rusiya 2015-ci ilin iyulunda Gürcüstanda işğal xəttini genişləndirdikdən və Bakı-Supsa boru kəmərinin bir hissəsinə nəzarət etməklə bağlı təhdid etdikdən sonra üçtərəfli hərbi təlimlərin effektivliyi mübahisə predmetinə çevrilmişdir[28]. Nəticədə, gözlənildiyi kimi, 2015-ci ildə Türkiyə, Azərbaycan və Gürcüstan arasında üçtərəfli hərbi təlimlər aparıldıqdan sonra Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlərinin çevik reaksiya üzrə polis qüvvələri üçün Bağramyanda hərbi təlimlərə start vermiş[29] və təlimdə iştirak edən qoşunlar Ermənistanı işğal edən xəyali düşmənə qarşı döyüşmüşdür[30].

---

[25] Lonardo D. (2016): İslam dövləti və onun Azərbaycanda Cihadizmin tarixi şəbəkələri ilə əlaqələri, *Qafqaz tədqiqatı*, səh. 245-248; Haqqin.az 2017, *İŞİD düşərgəsində Azərbaycan qadınları: «Biz əsl müsəlman kimi yaşayırdıq»*, https://haqqin.az/news/110348; Daxil olunub: 13 aprel 2020-ci il

[26] Qeybulla A., 2017, Azərbaycanda radikal islam, yaxud hökumətin paranoyası?,*Qafqaz Analitik İcmaslı* Say. 93, səh. 11

[27] HPG (Hêzên Parastina Gelê) 2012, *Ağrı və Hakkaridə Hərakat və Döyüşlər*, Link: http://hezenparastin.info/eng/index.php?view=article&id=1252:action-and-clashes-in-both-agri-and-hakkari&catid=80; Daxil olunub: 10 fevral 2020-ci il; Röyter 2015, PKK-nin hücumları Şah Dəniz qaz kəmərininin Türkiyədə fəaliyyətini dayandırdı, Link: https://www.reuters.com/article/us-mideast-crisis-turkey-pipeline/pkk-attacks-turkeys-halted-shah-deniz-gas-pipeline-idUSKCN0Q90Y120150804; Daxil olunub: 20 yanvar 2020-ci il

[28] Şiriyev Z. 2016, Üçtərəfli strateji tərəfdaşlığın institusionallaşdırılması: Azərbaycan-Gürcüstan-Türkiyə*, Konrad-Adenauer-Stiftungun Cənubi Qafqaz üzrə Regional Proqramı*, səh. 15

[29] Abrahamyan E. 2016, *Cənubi Qafqaz: Birgə və Bölünmüş, NATO*, Link: ; Daxil olunub: 28 dekabr 2019-cu il

[30] Azatutyun 2019, *Rusiya-Ermənistan Hərbi Qüvvələri Yeni Təlimlər Keçirir*, Link: ; Daxil olunub: 28 dekabr 2019-cu il

# DAYANIQLI CƏMİYYƏTƏ DOĞRU: UĞURLU YUMŞAQ TƏDBİRLƏRİN İCMALI

Tənqidi terrorizm araşdırmaları terrorizmə qarşı mübarizədə yumşaq yanaşmanın effektivliyini vurğulamışdır. Bu cür yanaşma koqnitiv səviyyədə terrorizmə qarşı mübarizədə sosial dayanıqlıq tədbirlərinə diqqəti çəkir və sosial münasibətlərin gücləndirilməsi, eləcə də, icma potensialının artırılmasının əhəmiyyətini, xüsusilə, nəzərə alır[31]. Yumşaq yanaşmadan irəli gələn təşəbbüslərin davranışsal zorakılıqla mübarizəni prioritetləşdirən ağır tədbirlərlə müqayisədə terrorizmə qarşı mübarizədə daha yüksək uğur göstəriciləri olmuşdur. Məsələn, Səudiyyə Ərəbistanı və Sinqapurdakı belə de-radikallaşma proqramlarında müvafiq olaraq iştirakçıların 80% və 97.5%-i effektiv şəkildə reabilitasiya olmuşlar[32].

Azərbaycanın terrorizmə qarşı mübarizə üzrə yumşaq tədbirlərinin böyük hissəsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən dini icmalar üçün kontr-narrativ (əks-təbliğat) işlərinin aparılmasına cəmləşib[33]. Lakin, elmi tədqiqata əsasən, dəlillərə əsaslanmayan bu kimi tədbirlərdən istifadə, terrorizmə qarşı təhlükəsizlik istiqamətində görülən mübarizə tədbirləri ilə birləşdikdə artıq marjinallaşmış icmaları daha da radikallaşdırmaq potensialını daşıyırlar[34]. BMTİP-in Afrikada terrorizmlə bağlı apardığı araşdırmada aşkar olunmuşdur ki, hətta dini icmalarla güclü ünsiyyətin qurulması da zorakı ekstremizmin azalmasına az təsir göstərmişdir, çünki sorğuda iştirak etmiş ekstremistlərin 57%-i etiraf etmişlər ki, onların dini ədəbiyyatla bağlı bilikləri azdır. Əvəzində, onlar radikallaşmanın əsas səbəbi kimi təhlükəsizlik qurumlarının repressiv hərəkətlərinə görə hökumətə olan inamsızlığı (71%) qeyd edirlər[35]. **Buna görə də, terrorizmə qarşı mübarizədə uğurlu yumşaq tədbirlərin hazırlanmasında ilkin addım radikallaşmasın lokal motivasiyaları və mənşəyi, o cümlədən müvafiq aktorlar tərəfindən həyata keçirilmiş uğurlu təcrübələrə dair davamlı araşdırmanın aparılmasıdır.**

Həmçinin, milli səviyyədə terrorizmə qarşı mübarizə tədbirlərində potensial cinayətkarlar və onların ailələri sosial tədbirlər vasitəsilə[36] reabilitasiya olunmağa cəhd edilsə də, həbs olunmuş ekstremistlər və geri qayıtmış döyüşçülər (və ailələri; uşaqları istisna olmaqla) üçün de-

---

[31] Vimelius M.E., Malin E., Kinsman J., Strandh V. və Ghazinour M. (2018): Radikallaşmaya qarşı yerli dayanıqlılıq nədir və onu necə təşviq etmək olar? Çoxprofilli Ədəbiyyat İcmalı, *Münaqişə və Terrorizm üzrə Araşdırmalar*, 38(5), səh. 4-10

[32] RAND Korporasiyası 2010, *Deradikallaşma Proqramlarının Təqdiqatı*, Link: https://www.jstor.org/stable/10.7249/mg1053srf.10; Daxil olunub: 16 fevral 2020-ci il

[33] ABŞ Dövlət Departamenti 2016, *Terrorizm üzrə Ölkə Hesabatları 2015: Azərbaycan*, https://2009-2017.state.gov/j/ct/rls/crt/2015/257516.htm; Daxil olunub: 4 yanvar 2020-ci il

[34] Rosand E. və Vinterbotham E. 2019, *Əks təbliğat həqiqətən zorakı ekstremizmi azaldırmı?*, https://www.brookings.edu/blog/order-from-chaos/2019/03/20/do-counter-narratives-actually-reduce-violent-extremism/; Daxil olunub: 15 mart 2020-ci il

[35] OHCHR 2020. *Xüsusi məruzəçinin terrorizmə qarşı mübarizə ilə yanaşı insan hüquqlarının təşviqinə dair hesabatı*, Link: https://www.ohchr.org/EN/Issues/Terrorism/Pages/Annual.aspx; Daxil olunub: 7 fevral 2020-ci il

[36] Azərbaycan XİN, tarix yoxdur; *Terrorizmə qarşı mübarizə*, http://www.mfa.gov.az/en/content/199/countering-terrorism; Daxil olunub: 17 mart 2020-ci il

radikallaşma və reinteqrasiya proqramlarının olmaması terrorçu residivizmi üçün münbit şərait yaradır[37]. Azərbaycanda terrorçu residivizminin ən əlamətdar nümunələrindən biri Rövşən Bədəlovun işi ilə bağlıdır. O, Azərbaycanda 9 il həbsdə olduqdan qısa müddət sonra da Suriyaya köçmüş və İŞİD-in Azərbaycan batalyonunun rəhbərinə çevrilmişdir[38]. Onu da qeyd etmək lazımdır ki, həm azərbaycanlı cihadçılar, həm də "İŞİD gəlinləri" tərəfindən İŞİD rejiminə açıq şəkildə dəstək verilmişdir ki, bu da **de-radikallaşma və reinteqrasiya proqramlarının** gələcəkdə hücumların qarşısının alınmasında zəruriliyindən xəbər verir[39]. Uğurlu de-radikallaşma proqramları ilə bağlı elmi ədəbiyyat aşağıdakı tədbirlərin səmərəli olduqlarını göstərir:




Diqqətlə hazırlanmış de-radikallaşma proqramları Sinqapurda (97.5%), Malayziyada (96%) və Səudiyyə Ərəbistanında (80%) hədəf götürülmüş cinayətkarların əksəriyyətinin reabilitasiya olunmasında müvəffəqiyyətə nail olmuşdur. Həmçinin, stimul-əsaslı reinteqrasiya təşəbbüsləri danimarkalı döyüşçülərin 62%-inin evlərinə qayıtması və reabilitasiya olunmasına gətirib

[37] BBC Azərbaycan 2018, *"Suriyada, İraqda döyüşən bəzi azərbaycanlıların üçüncü ölkələrdə gizlənməsi barədə məlumatlar var"*, https://www.bbc.com/azeri/azerbaijan-42832134; Daxil olunub: 13 aprel 2020-ci il
[38] Realtv.az 2020, *İŞİD-ci "Həmzə"nin Sədərəkdən Suriyaya gedən yolu həbsxanada bitdi*, Link: https://www.realtv.az/; Daxil olunub: 13 aprel 2020-ci il
[39] News.az 2018, *Azərbaycan İraqdan qadın və uşaqların qaytarılması ilə bağlı danışıqlar aparır.* https://news.day.az/politics/1076195.html; Daxil olunub: 13 aprel 2020-ci il; Haqqin.az 2017, *"İŞİD düşərgəsində Azərbaycan qadınları: «Biz əsl müsəlman kimi yaşayırdıq»*, https://haqqin.az/news/110348

çıxarmışdır[40]. Bundan əlavə, prosesə hazırda de-radikallaşmış fərdlərin qatılması ekstremist ideologiyaların inkar olunmasında uğurlu strategiya hesab edilir[41].




Lakin, təkcə həbsxanada de-radikallaşma və reinteqrasiya proqramları koqnitiv radikallaşmanı rədd etmək məqsədilə terrorizmə qarşı yumşaq tədbirlər kimi kifayət deyil. **Əhali mərkəzli tədbirlər** müxtəlif icmaların daxili və xarici şoklara qarşı vətəndaş hazırlılığını artırmaq üçün həyata keçirilməlidir ki, insanların zorakı ekstremizə əsaslanan ideologiyalardan təsirlənməsinin qarşısı alınsın. Terrorizmə qarşı mübarizədə "əhali mərkəzli" yanaşmaya dair ən uğurlu təcrübə İndoneziyada olmuşdur. İndoneziyada bu yanaşmadan istifadə ölkədəki terror hücumlarının sayını əhəmiyyətli dərəcədə azaltmışdır[42]. "Əhali mərkəzli" tədbirlərə aşağıdakılar daxildir: ekspert qiymətləndirməsi və yerli əhalinin birbaşa iştirakı vasitəsilə bələdiyyə səviyyəsində sosial-iqtisadi planlaşdırma (bu, böhran zamanı fəaliyyət göstərmək üçün icmanın iqtisadi potensialı artırır; yoxsulluğu azaldır; eləcə də siyasi sistemə inamı bərpa edir); maarifləndirmə tədbirlərinin artırılması; və həmçinin, stress və qorxunun idarə olunmasına yönəldilmiş icma

---

[40] Ertel M. (2015), *Danimarkanın radikal Cihada cavabı*, Link: https://www.spiegel.de/international/europe/aarhus-program-for-returning-jihadists-from-syria-a-success-story-a-1019633.html, Daxil olunub: 6 mart 2020-ci il; Hoeft G. 2015, Terrorizmə qarşı mübarizədə "yumşaq" yanaşmalar: Deradikallaşma proqramlarının üstünlüklərinin aşkar olunması, *terrorla mübarizə üzrə Beynəlxalq İnstitut*, səh. 1 -66'; Kamilsoy N. 2018, *Azərbaycana qayıdan əcnəbi döyüşçülərlə necə işləməli: deradikallaşma üçün yenidən inteqrasiya?*, səh 1-17; Bostok B. 2019, *Hökumətin "deradikallaşma" proqramlarında iştirak etmiş 24 şəxsin terroristlər tərəfindən öldürülməsi bu səylərin olduqca qüsurlu olduğunu göstərir*, Link: https://www.businessinsider.com/deradicalization-terrorists-does-it-work-london-bridge-2019-12, Daxil olunub: 6 mart 2020-ci il

[41] Hoeft G. 2015, Terrorizmə qarşı mübarizədə "yumşaq" yanaşmalar: Deradikallaşma proqramlarının üstünlüklərinin aşkar olunması, *terrorla mübarizə üzrə Beynəlxalq İnstitut*, səh. 54

[42] Meijer R. 2012, İndoneziya, Əlcəzair və Səudiyyə Ərəbistanında Terrorizmə Qarşı Strategiyalar, *Niderland Beynəlxalq Əlaqələr İnstitutu 'Clingendael'*, səh. 16

tədbirləri[43]. Azərbaycan yalnız gənclər və dini icmalar arasında maarifləndirmə tədbirləri aparıb; ancaq elmi tədqiqatlarda qeyd olunur ki, belə konkret icmalar üçün nəzərdə tutulmuş tədbirlər müəyyən əhali qruplarını riskli əhali kimi tanıyır və ümumilikdə terrorizmə qarşı tədbirlərin uğurlarını təhlükə altına salır.

Əlavə olaraq, əhali mərkəzli yanaşmada potensial residivizmi aradan qaldırmaq məqsədilə keçmiş terrorçuların sosial əfvi təşviq olunmalıdır. Keçmiş militantlara qarşı mənfi sosial hislər, məsələn, Nigeriyada, nəticədə, cəmiyyətə inteqrasiya edə və alternativ gəlir mənbələri tapa bilmədikləri üçün onlar arasında residivizm nisbətinin 50 faizdən artıq olması ilə nəticələnmişdir[44]. Azərbaycanda keçmiş ekstremistlərə münasibətdə sosial qəbuletmənin önəmi yaxın illərdə Azərbaycan vətəndaşlarının sosial-iqtisadi vədlər qarşılığında İŞİD-ə qoşulmaq halları ilə əlaqədar daha da artır.

Nəhayət, Azərbaycanda multikultural və çoxdinli mühiti nəzərə alsaq, icma dialoqları hər bir şəxs üçün aidiyyət hissini yaratmaq baxımından mühüm rol oynaya və ekstremist motivasiyaları rədd edə bilər. Tədqiqat nəticələri göstərir ki, icmanın cəlb olunduğu proqramlar zorakı radikallaşmanın qarşısını əhəmiyyətli dərəcədə alır. İcma dayanıqlılığı üzrə ən uğurlu tədbirlər Sinqapurda həyata keçirilmişdir. Burada "irqlərarası və dini inam dairələri"nin yaradılması çinli (58%), malay (21%), hindli (20%) və digər etnik kimlikləri (1%) bir araya gətirmiş və azlıq qrupları arasında marjinallaşma hissini aradan qaldırmışdır. 7 il ərzində Sinqapurun dini qurumlarının 84%-i bu təşəbbüslərə qoşulmuş və 2001-ci ildən bəri böyük miqyaslı yalnız bir hücum baş vermişdir[45].

# NƏTİCƏLƏR VƏ TÖVSİYƏLƏR

Türkiyə və Azərbaycan arasında təhlükəsizlik üzrə güclü əməkdaşlığı nəzərə alsaq, terrorizmə qarşı mübarizədə "ağır" tədbirlər qısamüddətli perspektivdə davranışsal radikallaşmanı aradan qaldırmaq baxımından faydalar gətirə bilər. Lakin iki əsas risk nəzərə alınmalıdır: 1) terrorizmə qarşı həddən artıq "ağır" tədbirlər koqnitiv radikallaşmanı rədd etmir və marjinallaşmış icmalar daxilində bunu daha da alovlandıra bilər; 2) yüksək hərbi tədbirlərə etibar etmək geosiyasi risklər doğura bilər.

Uğurlu "yumşaq" yanaşmaların qiymətləndirilməsi əsasında Azərbaycan üçün aşağıdakı tövsiyələr nəzərə alınmalıdır:

- Empirik dəlillərə əsaslanan və beynəlxalq insan hüquqları standartlarına uyğun gələn terrorizmə qarşı mübarizə tədbirlərinin hazırlanması;

---

[43] Lasconjarias G. 2017, Dayanıqlılıq vasitəsilə yayındırma: NATO, Dövlətlər və Hazırlıqlı olmaq üçün çağırışlar, *Eisenhower Sənədi*, N.7, səh. 1- 8; Putten F.V.D., Meijnders M. və Rood J. 2015, Qeyri-ənənəvi təhlükələrə qarşı yayındırma təhlükəsizlik konsepsiyası kimi, *Niderland Beynəlxalq Əlaqələr İnstitutu 'Clingendael'*, səh. 20; Wimelius M.E., Malin E., Kinsman J., Strandh V. və Ghazinour M. (2018): Radikallaşmaya qarşı yerli dayanıqlılıq nədir və onu necə təşviq etmək olar? Çoxprofilli Ədəbiyyat İcmalı, *Münaqişə və Terrorizm üzrə Araşdırmalar*, 38(5), səh. 11

[44] Felbab-Brown V. 2018. Nigeriya üzrə tematik araşdırma. Ənənəvi ədalət mühakiməsi və zorakı ekstremizmdə cəzanın limitləri. *Birləşmiş Millətlər Təşkilatının İnteqrativ Keçidlər üzrə Universitet və İnstitutu*, səh. 113

[45] Yuit G.C.H. 2009, Sinqapurun Terrorizmə qarşı Mübarizədə Yanaşması, *CTC Sentinel*, 2(12), səh. 22

- Residivizmin qarşısının alınması məqsədilə həbsxana de-radikallaşma və reinteqrasiya proqramlarının təşviqi;
- Özündə bələdiyyə səviyyəsində sosial-iqtisadi planlaşdırma, milli səviyyədə maarifləndirmə işlərinin təşkili, stress və qorxunun idarə edilməsi üzrə icma proqramları və keçmiş məhbuslara münasibətdə sosial qəbuletmənin öyrədilməsini nəzərdə tutan terrorizmə qarşı "əhali mərkəzli" tədbirlərin təşviqi;
- İctimai inamı gücləndirmək və marjinallaşmanı azaltmaq məqsədilə icma iştirakçılığı proqramlarının hazırlanması.

Terrorizmə qarşı mübarizə üzrə yumşaq tədbirlərin nailiyyəti aydın şəkildə müəyyən olunmuş proqram məqsədlərindən, müvafiq maraqlı tərəflərin proqram nəticələrini müstəqil şəkildə qiymətləndirmələrindən, eləcə də qeyri-proporsional şəkildə konkret icmaları hədəf almaqdan çəkinmədən asılıdır[46].

[46] Meijer R. 2012, İndoneziya, Əlcəzair və Səudiyyə Ərəbistanında Terrorizmə Qarşı Strategiyalar, *Niderland Beynəlxalq Əlaqələr İnstitutu 'Clingendael'*, səh. 17

Gürcüstan Siyasət İnstitutu (GSİ) Tbilisidə yerləşən, gəlir üçün işləməyən, bitərəf tədqiqat və təhlil işləri ilə məşğul olan təşkilatdır. GSİ Gürcüstanda strateji tədqiqat və təşviqat vasitəsilə demokratik institutların təşkilati bünövrəsini gücləndirmək, eləcə də yaxşı idarəçilik və inkişafı təşviq etmək istiqamətində çalışır.

Bu nəşr Heinrich Boell Stiftung Tbilisi Ofisi – Cənubi Qafqaz Regionu ilə əməkdaşlıq çərçivəsində hazırlanmışdır. Bu nəşrin məzmununa görə yalnız müəllif məsuliyyət daşıyır. Nəşr nə Heinrich Boell Stiftung Tbilisi Ofisi – Cənubi Qafqaz Regionu, nə də Gürcüstan Siyasət İnstitutunun fikirlərini əks etdirir.

BU SƏNƏDDƏN NECƏ SİTAT GƏTİRMƏLİ:

Nicat Eldarov, *Bakının terrorizmlə mübarizə potensialının gücləndirilməsində Türkiyənin rolu: Yumşaq yanaşma nə dərəcədə işləkdir?,* Analitik qeyd No. 27, Gürcüstan Siyasət İnstitutu, İyun 2020.

© Georgian Institute of Politics, 2020
Tel: +995 599 99 02 12
Email: info@gip.ge
www.gip.ge